# DOST



ƏNTİQƏ SƏMƏNDƏR

Ayrılıq üzümə gülüb,
Ağrılarım seyrəlmir, dost.
Ümidlərim iməkləyir,
məzarına tərəf.
Can verdiyin yerdə
dirilir xatirələr...
İndi bacarığım arzulamaqdı
Elə hey arzulayıram...
Bir gün qapım döyülə,
Ayrılığın dizi sına dünyada -
əlimdən tutasan sakitcə, dost.

# ÜRƏK AĞRISI

...onsuz da köçkün doğulmuşdum
Onsuzda ürəksiz idim, zalım.
Gəldin vətənsizliyimin üstünə,
sevgisizliyim gəldi.
İndi deyəcəksən ki,
Ürəksizdə nə sevgi
Ürəyimdən köçgün
düşəndə anladım
Ürəksizlərin ürək ağrısın...

# VƏTƏN

Yaralı köksünə baxıb,
Ötə bilmədiyim vətən.
Nankor olub, harayına
yetə bilmədiyim vətən.
Əsir, qazi içində
İtə bilmədiyim vətən.
Çəmənində ot olub,
Bitə bilmədiyim vətən.
Yuxular çin çıxarmış -
vətənə getmək varmış,
Şeirimdən o tərəfə,
Gedə bilmədiyim vətən